**Novruzova S.S.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.73.76-84**
**UDC: 341.645.5**

## The European Union law and the European Court of Human Rights

**Abstract:** The article analyzes the place and role of European Union law among the sources of law used by the European Court of Human Rights. The unique position of the law of the European Union among the sources of the ECHR, its historical characteristics, and the peculiarities of the influence of EU law on the practice of the ECHR are considered.

**Keywords:** Court; law; state; Convention; norm; practice.

## Referencess

1. A, B and C v Ireland.Application no. 25579/05. Judgment of 16 December 2010.
2. Bosphorus v. Airways Ireland. Application № 45036/98. Judgment of 30 June 2005.
3. Callewaert J. The Accession of the EU to the ECHR and the Charter of Fundamental Rights. Council of Europe Publishing F-67075. 2014. – 107 p.
4. Connolly v. 15 Member States of the European Union. Application № 73274/01. Judgment of 9 December 2008.
5. Douglas-Scott S. A tale of two Courts: Luxembourg, Strasbourg and the growing European Human Rights acquis. Common Market Law Review vol. 43, ( 3 ). – pp.629-665.
6. Dzehtsiarou K. What is Law for the European Court of Human Rights? // Georgetown Journal of International Law, - Vol. 49, - No. 1, - 2017 – pp.89-134.
7. Google Spain SL and Google Inc. v Agencia Española de Protección de Datos (AEPD) and Mario Costeja González. Case C-131/12.
8. Lock T. The Influence of EU Law on Strasbourg Doctrines. European Law Review, vol. 41 (2016), no. 6, pp. 804-825.
9. Lock T.EU Accession to the ECHR: Implications for Judicial Review in Strasbourg. European Law Review. – 2010. – Is. 6.
10. Matthews v. The United Kingdom. Application № 24833/94. Judgment of 18 February 1999.
11. SlaughterA.-M. A Global Community of Courts. Harvard International Law Journal, December 2003, p.191-219.
12. Spain v. UK, Case C-145/04
13. X v. Germany. Application No. 342/57
14. Voinikov V.V. Law of the European Union in practice of the European Court of Human Rights // Mezhdunarodnoe pravosudie. 2020. No. 1 (33), p. 50-66 (in Russian).

♦ **Novruzova Saadat Samad –** PhD in Law, a dissertator of "International General Law" Department of the Baku State University, a lecturer of Legal Faculty of the Khazar University (Azerbaijan). E-mail: saadat_n@yahoo.com

15. Ispolinov A.S. Исполинов А.С. Courts of regional integration associations in international justice: on the example of the EU Court and the EAEU Court. PhD in Law Diss. Moscow, 2018. 346 p. (in Russian).

16. Ryabova V.O. Рябова В.О. Interaction between the Court of Justice of the European Union and the European Court of Human Rights in human rights cases after the Lisbon Treaty**.** PhD in Law Diss. Moscow, 2016, 188 p. (in Russian).

17. Chernysh A.V. Черныш А.В. European Union competition law and respect for human rights. PhD in Law Diss Kazan, 2015, 194 p. (in Russian).

**Novruzova S.S.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.73.76-84**
**UOT: 341.645.5**

## Avropa Birliyinin hüququ və İnsan Hüquqları üzrə Avropa Məhkəməsi

**Xülasə:** Bu məqalədə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin istifadə etdiyi hüquq mənbələri arasında Avropa Birliyi hüququnun yeri və rolu təhlil edilmişdir. Avropa Birliyi hüququnun İHAM mənbələri arasında unikal mövqeyi, tarixi xüsusiyyətləri, AB hüququnun İHAM praktikasına təsir istiqamətləri araşdırılır.

**Açar sözlər***:* Məhkəmə; hüquq; dövlət; Konvensiya; norma; praktika.

Avropa Birliyinin (bundan sonra - AB) hüququ Birliyə üzv dövlətlər üçün fəaliyyət göstərən normalar sistemidir. AB-nin hüquqi bazası 27 üzv dövlətin hökumətləri tərəfindən yekdilliklə razılaşdırılmış Avropa Birliyi haqqında Müqavilə və Avropa Birliyinin Fəaliyyəti haqqında Müqaviləyə dayanır. AB-nin hüquq mənbələrinin təsnifatında bunlar ilkin mənbələrə aid edilir. AB-nin yeddi əsas təsisatının qəbul etdiyi aktlar ikincil hüquq kateqoriyasına aid edilir. Qalan aktlar AB hüquq sistemində üçüncü hüquq və ya digər hüquq kimi təsnif olunur.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – İHAM və ya Məhkəmə) istifadə etdiyi hüquq mənbələrinin təsnifatında AB hüququ unikal statusa malikdir. AB üzvü olan 27 dövlətin hamısı eyni zamanda Avropa Şurası (bundan sonra – AŞ) üzvləridir, İnsan hüquqları və azadlılarının müdafiəsi haqda Konvensiyanı (bunsan sonra – Konvensiya) və onun müvafiq Protokollarını ratifikasiya etmişlər, bu səbəbdən, AB hüququ həmin 27 ölkə üçün daxili mənbədir. Eyni zamanda, AŞ-nın 46 üzvündən 19-u AB üzvü deyildir, bu səbəbdən, AB hüququ həmin 19 ölkə üçün xarici mənbədir.

İHAM-ın istinad etidiyi hüquq aktları ümumən üç blokda təsnif olunur: 1) *daxili mənbələrə* Konvensiya və onun Protokolları, İHAM-ın presedent hüququ, Konvensiya üzv dövlətlərin daxili hüququ, AŞ çərçivəsində qəbul olunan müqavilələr və yumşaq hüquq aktları aiddir; 2) *xarici mənbələrə* beynəlxalq hüquq normaları, beynəlxalq və regional məhkəmələrin qərarları, beynəlxalq

♦ **Novruzova Səadət Səməd qızı -** Bakı Dövlət Universitetinin "Beynəlxalq Ümumi Hüquq" kafedrasının dissertantı Xəzər Universitetinin Hüquq kafedrasının müəllimi Hüquq üzrə fəlsəfə doktoru (Azərbaycan). Email:saadat_n@yahoo.com

təşkilatların aktları, bir sözlə, Avropa Şurası xaricində bütün mötəbər hüquq mənbələri (AB hüququ istisna) aiddir; 3) *AB hüququ* [6, s. 99, 106, 118].

Bununla belə, AB hüququnun İHAM üçün daxili mənbəyə bərabər olduğunu iddia edən fikirlər də rast gəlinir və qeyd etmək lazımdır ki, son onilliklərdə bu cür fikirlər daha sıx səslənir. Həmin fikirlərin ümumi məğzi budur ki, AB çərçivəsində qəbul olunan normalar AB üzv dövlətlərin razılığını əks etdirdiyindən və üstəlik, AB üzvü olan ölkələr AŞ-da çoxluq təşkil etdiyindən (46-dan 27) AB hüquq normaları müəyyən hallarda avtomatik olaraq Avropa konsensusu yaradır. Məsələn, İHAM-ın sabiq hakimi Kristos Rozakis və onunla həmmfikir hakimlərin rəylərinə görə, AB hüququ ilə qabaqcıl müdafiənin təmin olunduğu hallarda Avropa konsesunun mövcud olduğunu inkar etmək olmaz. AB üzvü dövlətlərin qabaqcıl müdafiədə həmfikir olması, onun fikrincə, Avropa konsensusunun varlığını təsdiq etmək üçün kifayətdir, çünki AB üzvləri Konvensiya üzvlərinin çoxluğunu təşkil edir, üstəlik, konsensus anlayışı mütləq bütün üzvlərin eyni mövqedə olması anlamına gəlmir [3, s. 44-45].

T. Lock Konvensiya hüququ çərçivəsində Avropa konsensuslarının yaranma mexanizmlərinə istinadən haqlı olaraq qeyd edir ki, yeni normaların daxili mənbəyə çevrilə bilməsi üçün onlar Konvensiya normalarının süzgəcindən keçməlidir [8, s. 824]. Məntiqlə, AB hüquq normaları ilk baxışdan Konvensiyaya uyğun olsa belə, AB üzvlərinin AŞ-da çoxluqda olması səbəbilə bu normalar avtomatik olaraq Avropa konsensusu yarada bilməz. Konvensiya hüququ çərçivəsində Avropa konsensusu İHAM-ın presedent praktikası ilə formalaşan çoxfaktorlu, tədricən həyata kerçirilən prosesdir. AB üzvü olmayan 19 ölkə Konvensiya və onun Protokollarını ratifikasiya etmişlər və öhdəlikləri yalnız bu çərçivədədir.

Həmçinin nəzərə alınmalıdır ki, Konvensiyada təsbit olunmuş əsas hüquqlar AB-nin Nizamnaməsində (6-cı maddənin 2-ci bəndi) AB hüququnun əsaslarına aid edilsə də, AB-nin öz qanunlarının Konvensiyaya uyğunluğunu təmin etmək kimi birbaşa öhdəliyi yoxdur. Başqa sözlə, AB məhkəmələri ilə İHAM praktikaları arasında insan hüquqları məsələlərində ziddiyyətlərin yaranma potensialı var və hazırda bunu istisna etməyin üsulu kimi AB-inin Konvensiyaya üzv olması müzakirə olunur.

Xüsusən, AB-nin Konvensiyaya qoşulması AB hüququna İHAM üçün daxili mənbə mötəbərliyi qazandırmır. Qoşulma faktı AB məhkəmələrinin insan hüquqları məsələlərində İHAM ilə uzlaşmasına tövhə verə bilər. Eyni zamanda, AB-nin Konvensiyaya üzv olması AB məhkəmələrini insan hüquqları ilə bağlı işlərdə digər Konvensiya üzvlərinin milli məhkəmələri ilə eyni statusa salmaq deməkdir ki, bu da AB məhkəmə sistemi üçün qəbul edilə bilən görünmür.

AB hüququnun İHAM praktikasına təsiri ilə bağlı müxtəli məsələlər T. Lock [8], S. Duglas-Scott [5], A.V. Çernış [17], V.V. Voynikov [14], V.O. Ryabova [16], A. İspolinov [15] də digər alimlər tərəfindən monoqrafiya və ya dissertasiya tədqiqatları çərçivəsində araşdırlımışdır. Lakin İHAM-ın AB hüququna istinadlarında rəsmi müəyyən metodologiyalar olmadığından, ayrı-ayrı müəlliflərin AB hüququ ilə İHAM praktikasının münasibətini sistemə salmaq cəhdləri müəllif kommentariyası olaraq qalır.

İHAM-ın praktikasında AB hüququna ilk istinad 1979-cu ilə təsadüf edir. 1979-1990-cı illər ərzində cəmi 7 istinad olduğu halda, 1991-1999-cu illərdə 20 istinad, 2000-2011-ci illər ərzində 50 istinad qeydə alınmışdır. Həmçinin nəzərə alınmalıdır ki, AB hüququnun İHAM-ın fəaliyyətinə təsiri sadəcə konkret istinadlar, onların sayı və məzmunu ilə ölçülmür. AB hüqunun özlüyündə varlığı, xüsusən AB məhkəmələrinin yaratdığı doktrinalar, hakimlərin görüşləri, inkişaf tendensiyaları İHAM çərçivəsində doktrinaların təkamülünə təsir göstərir. Odur ki, konkret

istinadlar olmasa belə, insan hüquqları sahəsində AB-nin mütərəqqi doktrinalarının İHAM hakimlərinin görüşlərinə təsiri labüddür.

İnsan hüquqları Xartiyasının (bundan sonra – Xartiya) hazırlanması və qəbulu ilə bağlı İHAM-ın AB hüquq sistemi aktlarına müraciət intensivliyinin artım dinamikası, eyni zamanda, AB məhkəmələrinin Konvensiya və İHAM presedentinə müraciətlərinin intensivliyində azalma ilə müşayiət olunmaqdadır. Xartiyanın qüvvəyə minməsindən əvvəl AB məhkəmələri müvafiq işlərdə insan hüquqları sahəsində əsas sənəd olaraq Konvensiyaya və İHAM-ın presedent təcrübəsinə tez-tez müraciət edirdisə, AB məhkəmələrinin ixtiyarında əsas daxili sənəd olaraq Xartiyanın meydana çıxması kənar sənədlərə ehtiyac zərurətini azaltmış oldu.

Xartiya əsas etibarı ilə Konvensiya hüququndan çıxış almışdır, bununla belə, Konvensiya ilə müqayisədə daha əhatəli və bir sıra məsələlərdə daha proqressiv sənəddir. Onun Konvensiyanın yenilənmiş versiyası olması barədə fikirləri bu baxımdan haqlı saymaq olar.

AB Nizamnaməsinin 6-cı maddəsi Konvensiya ilə təsbit edilmiş əsas hüquqları AB hüququnun məzmununa ümumi prinsiplər olaraq aid edir. Ancaq bu norma AB-nin Konvensiya hüququna, xüsusən də İHAM-ınpresedent hüququna öhdəlikli bağlı olmasını ehtiva etmir. AB Konvensiya üzvü olmadığından, xüsusi məsələlərdə öz hüquq normalarının Konvensiyaya uyğunluğuna görə cavabdehlik daşımır. Cavadehlik yalnız AB üzv-ölkələrinin Konvensiya öhdəliklərinə bağlıdır.

T. Lock İHAM-ın Avropa Birliyi qanunvericiliyinə və praktikasına istinadlarının üç senarisini fərqləndirir. Birinci senari - AB üzvü olan dövlətlər tərəfindən AB qanunvericiliyi üzrə öhdəliklərin pozulması eyni zamanda Konvensiyanın analoji normalarının pozuntusu kimi tanınan işlərlə bağlıdır [8, s. 811]. Yəni, belə hallarda AB hüququnun pozulan norması Konvensiyanın pozulan normasına ekvivalentdir, cavadeh ölkənin hərəkət və ya hərəkətsizliyi iki normanın eyni vaxtda pozulmasına səbəb olur. Odur ki, belə hallarda AB hüququ və Konvensiya hüququ arasında ziddiyyət predmeti yaranmır, əksinə, onlar bir-birini dəstəkləyir.

İkinci senari –AB-nin hüquq materiallarına işin faktiki əsaslarının bir elementi kimi Məhkəmə tərəfindən müraciət edildiyi halları əhatə edir. Məsələn, "A, B və C İrlandiyaya qarşı" işdə Məhkəmə Maastriht müqaviləsinin 17 saylı Protokoluna istinad edərək bəyan etmişdi ki, İrlandiya konstitusiyasında olan abort qadağası AB qanunvericiliyi ilə toxunulmaz saxlanılmışdır [1]. Bu istinadla Məhkəmə nəzərə çatıdır ki, AB-də abort məsələsi ilə bağlı konsensus yoxdur; İrlandiyada abort məhdudiyyətləri "köklü əxlaqi dəyərlərə əsaslanır". Analoji xarakterli digər işlərdə Məhkəmə AB hüququna istinad etmədən də eyni mahiyyətli qərarlar çıxarmışdır. AB hüququna istinad bu halda gücləndirici arqument kimi istifadə olunmuşdur.

Üçüncü senari İHAM-ın AB hüququndan birbaşa təsirləndiyi halları əhatə edir. T.Lock bu senari üzrə AB hüququnun İHAM-ın fəaliyyətinə təsirinin dörd aspektini ayırd edir: informativ məqsədlər; müstəqil təfsiri dəstəkləyən istinadlar; leqal transplantlar; təkamülçü (evolyutiv) təfsiristinadları [8, s. 813].

Hələ 1958-ci ildə "X Almaniyaya qarşı" prosesdə Avropa İnsan Hüquqları Komissiyası bəyan etmişdi ki, Konvensiya üzvü konvensional öhdəliklərini digər beynəlxalq öhdəliklər üzündən yerinə yetirə bilməyən hallarda onun Konvensiya üzrə məsuliyyəti istisna olunmur [13]. Bu, açıq bəyan idi ki, üzv dövlətlərin Konvensiya öhdəliklərindən geri çəkilməsi yalnız Konvensiyada müəyyən olunmuş hallarda mümkün ola bilər.

1990-cı ildə baxılmış "M&Co Almaniyaya qarşı" işdə ərizəçi AB Məhkəməsinin qərarının icrası ilə bağlı ədalətli mühakimə araşdırması hüququnun (Konvensiyanın 6-cı maddəsi)

pozulduğunu iddia etmişdi. Qərara alındı ki, üzv-dövlətlər öz daxili orqanlarının bütün hərəkət və ya hərəkətsizliklərinə görə məsuliyyət daşıyırlar (bu cür hərəkət və ya hərəkətsizliyin daxili qanunvericilikdən yaxud beynəlxalq öhdəliklərə əməl etmək zərurətindən irəli gəlməsindən asılı olmayaraq). Eyni zamanda qeyd olunmuşdu ki, beynəlxalq təşkilata üzvlükdən irəli gələn öhdəliklər, əgər həmin təşkilat çərçivəsində əsas hüquqlar üçün "ekvivalent müdafiə" mövcuddursa, üzv dövlətin bu Konvensiya üzrə öhdəlikləri ilə bir araya sığmaz deyil. Beləliklə, Komissiya müəyyən etdi ki, AB-nin hüquq sistemi bu məsələdə ekvivalent müdafiə təqdim edir və bu cür hərəkət yolverilməzdir.

Beləliklə, digər beynəlxalq qurumların hüquq normaları ilə mümkün kolliziyaların aradan qaldırılması üsulu kimi həmin qurumlar çərçivəsində Konvensiya normalarına ekvivalent normaların mövcud olması qeyd-şərti meydana çıxır. Aydındır ki, bu şərt birtərəfli ola bilməz. Digər beynəlxalq təşkilatın normaları Konvensiya ilə müqayisədə daha proqressiv olarsa "ekvivalent müdafiə" təmin etmək vəzifəsi Avropa Şurasının üzərinə düşür. Xartiyanın qəbulu (2000) və qüvvəyə minməsi (2009) ilə məlum idi ki, Xartiya əsas hüquqlar məsələsində Konvensiyaya ekvivalent olsa da, bir sıra hüquqları təfərrüatlı tənzim etməsi, habelə Konvensiya və Protokollarda nəzərdə tutulmayan digər hüquqları təsbit etməklə, insan hüquqları sahəsində daha təkmil bir sənəddir. Buna görə, Xartiyanın qüvvəyə minməsi AB hüququ ilə Konvensiya hüququnun qarşılıqlı münasibətlərini yeni fazaya keçirən tarixi hadisə kimi baxıla bilər.

Xartiya hüquqlarının pozuntuları ilə bağlı ünvanlanan şikayətlərin artımı Avropa Ədalət Məhkəməsini (bunsan sonra – AƏM) bu hüquqlarla bağlı öz presedent praktikasını yaratmağa təşviq etməkdədir. Bu proses AB məhkəmə presedentlərinin İHAM presedentindən fərqli məcralarda inkişaf etməsi, habelə ziddiyyətlərin meydana çıxma ehtimalını yüksəldir.

Məsələn, "Google İspaniya" işində AƏM Xartiyanın 8-ci maddəsini genişləndirici təfsir etməklə, şəxsi məlumatların mahiyyətindən "unudulmaq hüququnun" irəli gəldiyini təsbit etmişdir. Xartiyanın 8-ci maddəsi Konvensiyanın analoji 8-ci maddəsi ilə müqayisədə müfəssəlliyi ilə səciyyələnir. Həmin maddənin 2-ci bəndinə əsasən:

"Şəxsi məlumatlar manipulyasiya olmadan, dürüst bəlli məqsədlərlə, maraqlı şəxsin razılığı ilə və ya qanunla nəzərdə tutulmuş digər hüquqa uyğun əsaslarla işlənilə bilər. Hər kəs öz barəsində toplanmış məlumatlara giriş almaq və bu məlumatlarda olan səhvləri düzəltmək hüququna malikdir".

Xartiyanın 7 və 8-ci maddələrini, habelə Konvensiyanın 8-ci maddəsini unudulma hüququ kontekstində təfsir edərək AƏM qət etdi ki, internet-axtarış sisteminin operatorları keçmiş hadisələr üzündən şəxsi həyata dair yayılmış məlumatların axtarış sistemində çıxmamasını təmin etməlidir. Qərarda həmçinin qeyd olunur ki, Xartiyanın 7 və 8-ci maddələri ilə qorunan hüquqlar həm axtarış operatorunun iqtisadi maraqlarına, həm də ictimaiyyətin məlumat tapmaq hüququna qarşı üstünlüyə malikdir [7].

Şəxsi və ailə həyatına hörmət hüququndan unudulma hüququnu əxz etməklə, habelə bu hüququn mütləqliyini təsbit etməklə AƏM Avropa məkanında şəxsi məlumatların qorunması ilə bağlı yeni mütərəqqi presedent yaratmış oldu. Aydındır ki, analoji işlərin İHAM-da baxılacağı halda həmin presedentdən fərqli bir yanaşma ortaya qoymaq asan olmayacaq. Qərarın geniş ictimai dairələrdə və akademik çevrələrdə əsasən müsbət qarşılandığını da nəzərə alsaq, çox güman ki, İHAM analoji işlərdə bu presedenti transplant etməli olacaqdır.

"Metyuz Birləşmiş Krallığa qarşı" işdə Deniz Metyus AB-nin 1976-cı il tarixli Birliklər haqda Qanununa dair mübahisə qaldırmışdı. Bu qanun AB üzvü ölkələrin ərazilərindən Avropa

parlamentinə seçkiləri tənizm edirdi. Qanun səbəbindən Gibraltar (Cəbəllüttariq) Avropa parlamentində təmsil oluna bilməmişdi. Metyus Böyük Britaniyaya qarşı iddia qaldırmış və İHAM şikayəti qəbul oluna bilən saymışdı. Məhkəmə AB-nin ekvivalent müdafiə təqdim edib-etmədiyinə dair qeydlər göstərmədən, birbaşa olaraq, Böyük Britaniyanın 1 saylı Protokolla təsbit edilmiş səsvermə hüququnu pozduğunu qət etmişdi. Əsaslandırmanın məzmunundan aydın olur ki, Məhkəmə AB-nin ilkin və ikincil hüququ arasında mövcud olmuş fərqləri əsas götürürür. İkincil hüquq aktları (qərarlar, direktivlər və sair) AƏM-də mübahisə predmeti ola bilər, lakin ilkin hüquq normalarının mübahisə predmeti olmasına yol verilmir. Bir sıra tədqiqatçıların fikrincə, bu mexanizm hüquqi müdafiədə boşluqlara yol açır [5, s. 637].

Nəticədə, Böyük Britaniya qərarın icrası çərçivəsində Gibraltar sakinlərinə seçki hüququ təmin etdi. Lakin bu cür problemli presedentin meydana çıxması çox keçmədən mənfi nəticələrini göstərməyə başladı, xüsusən, İspaniya tərəfindən Böyük Britaniyaya qarşı AƏM-ə verilən iddia (12) misal göstərilə bilər.

“Metyuz Böyük Britaniyaya qarşı” işdə İHAM həmçinin qət etmişdir ki, Avropa Birliyi Konvensiya üzvü olmadığından onun aktları İHAM-a şikayət oluna bilməz [10].

“Bosforus İrlandiyaya qarşı” işdə isə İHAM qət etdi ki, AB-nin üzv-ölkələri AB hüququ ilə şərtlənən Konvensiya pozuntularına görə AB əvəzindən məsuliyyət daşıya bilərlər. Bununla belə, AB hüququnda əsas insan hüquqlarının müdafiəsinin Konvensiya normalarına ekvivalent olduğu qeyd edilmişdir [2].

“Konolli Avropa Birliyinin 15 ölkəsinə qarşı” işinin hallarına görə, Avropa Komissiyasının əməkdaşı olmuş Konolli işdən azad edildikdən sonra əvvəlcə AB-nin ümumi yurisdiksiyalı məhkəməsi, ardınca AƏM qarşısında iddia qaldırmış, iddia təmin olunmamış, nəhayət İHAM-a müraciət etmişdi. Ərizəçi AB-nin 15 üzv-ölkəsini cavabdeh kimi göstərməklə, ədalətli məhkəmə araşdırması hüququnun (Konvensiyanın 6-cı maddəsi) pozulduğunu şikayət edirdi. Məhkəmə qeyd etdi ki, cavabdeh kimi göstərilən 15 ölkədən hər hansı biri iddiaçının şikayət etdiyi qərarın qəbulunda hər hansı formada iştirak etmədiyindən, bu pozuntu İHAM-ın yurisdiksiyasına aid oluna bilməz [4].

Xronoloji ardıcıllıqdan göründüyü kimi, Bosforus işində (2005) Məhkəmə AB üzvlərinin AB əvəzindən məsuliyyət daşıya bilmələrini qət etmişdirsə, Konolli işində (2008) bu yanaşmadan geri çəkilməklə ilkin mövqenin doğru olmadığını etiraf edir. Həqiqətən də, AB hüquq aktlarına görə AB üzvlərinin məsuliyyət daşıması absurddur. Formal olaraq, AB hüququna riayət səbəbilə Konvensiya normalarının pozulduğu hallarda konkret üzv dövlətə məsuliyyət isnad oluna bilər. Lakin bu, İHAM-ın AB hüququ ziddiyyətə girməsi anlamına gəlir. Qeyd olunan və digər nümunələr İHAM-ın AB məhkəmələri ilə münaqişəyə yol verməmək strategiyasına dəlalət edir. Bu xüsusa diqqət yetirən tədqiqatçıların fikrincə, İHAM belə hallarda AB məhkəmə sisteminə hörmət jesti edir və qarşılıq olaraq AƏM-dən Konvensiyaya qarşı həssas mövqe gözləyir.

İHAM və AB məhkəmələri arasında uzlaşmanın davam etdirilməsi hakimlərin qarşılıqlı anlayışlarla işləməsindən xeyli dərəcədə asılıdır. A.M.Slauter haqlı olaraq qeyd etmişdir ki, bütün səviyyələrdə, istər regional məhkəmələrlə milli məhkəmələrin, istərsə də regional və beynəlxalq məhkəmələrin üfüqi və şaquli qarşılıqlı təsir çərçivəsində vahid sistem kimi çalışa bilməsi üçün hakimlər onların qarşılıqlı münasibətlərini müəyyən edən bir sıra ümumi prinsipləri açıq və ya dolayı şəkildə qəbul etməlidirlər [11, s.194]. Faktiki olaraq, A.Slauter milli, regional və beynəlxalq məhkəmə təsisatlarını özündə birləşdirən qlobal məhkəmə və ya hakimlik meyarlarından bəhs edir.

AB məhkəmələri və İHAM hakimləri öz fəaliyyətlərində vahid meyarları rəhbər tutmaqla bu iki təsisatın insan hüquqları ilə bağlı Avropa konsensuslarını yaradılması istiqamətində səylərini yüksək səviyyədə uzlaşdırmağa nail ola bilərlər.

**Biblioqrafiya**

1. A, B and C v Ireland.Application no. 25579/05. Judgment of 16 December 2010.
2. Bosphorus v. Airways Ireland. Application № 45036/98. Judgment of 30 June 2005.
3. Callewaert J. The Accession of the EU to the ECHR and the Charter of Fundamental Rights. Council of Europe Publishing F-67075. 2014. – 107 p.
4. Connolly v. 15 Member States of the European Union. Application № 73274/01. Judgment of 9 December 2008.
5. Douglas-Scott S. A tale of two Courts: Luxembourg, Strasbourg and the growing European Human Rights acquis. Common Market Law Review vol. 43, ( 3 ). – pp.629-665.
6. Dzehtsiarou K. What is Law for the European Court of Human Rights? // Georgetown Journal of International Law, - Vol. 49, - No. 1, - 2017 – pp.89-134.
7. Google Spain SL and Google Inc. v Agencia Española de Protección de Datos (AEPD) and Mario Costeja González. Case C-131/12.
8. Lock T. The Influence of EU Law on Strasbourg Doctrines. European Law Review, vol. 41 (2016), no. 6, pp. 804-825.
9. Lock T.EU Accession to the ECHR: Implications for Judicial Review in Strasbourg. European Law Review. – 2010. – Is. 6.
10. Matthews v. The United Kingdom. Application № 24833/94. Judgment of 18 February 1999.
11. SlaughterA.-M. A Global Community of Courts. Harvard International Law Journal, December 2003, p.191-219.
12. Spain v. UK, Case C-145/04
13. X v. Germany. Application No. 342/57
14. Войников В.В. Право Европейского Союза в практике Европейского Суда по правам человека // Международное правосудие. - 2020. - №1 (33). - С. 50-66.
15. Исполинов А.С. Суды региональных интеграционных объединений в международном правосудии: на примере Суда ЕС и Суда ЕАЭС. Дис... канд. юрид. наук. М., 2018, 346 с.
16. Рябова В.О. Взаимодействие Суда Европейского союза и Европейского суда по правам человека по делам о защите прав человека после Лиссабонского договора. Дис... канд. юрид. наук. М., 2016, 188 с.
17. Черныш А.В. Конкурентное право Европейского Союза и соблюдение прав человека. Дис... канд. юрид. наук. Казань, 2015, 194 с.

Новрузова С.С.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2023.73.76-84
УДК: 341.645.5

## Право Европейского Союза и Европейский суд по правам человека

**Аннотация:** Анализируется место и роль права Европейского Союза среди источников права, используемых Европейским судом по правам человека. Рассмотрено уникальное положение права Европейского Союза среди источников ЕСПЧ, его исторические характеристики, и особенности влияния права ЕС на практику ЕСПЧ.

**Ключевые слова:** Суд; право; государство; Конвенция; норма; практика.

### Библиография

1. A, B and C v Ireland.Application no. 25579/05. Judgment of 16 December 2010.
2. Bosphorus v. Airways Ireland. Application № 45036/98. Judgment of 30 June 2005.
3. Callewaert J. The Accession of the EU to the ECHR and the Charter of Fundamental Rights. Council of Europe Publishing F-67075. 2014. – 107 p.
4. Connolly v. 15 Member States of the European Union. Application № 73274/01. Judgment of 9 December 2008.
5. Douglas-Scott S. A tale of two Courts: Luxembourg, Strasbourg and the growing European Human Rights acquis. Common Market Law Review vol. 43, ( 3 ). – pp.629-665.
6. Dzehtsiarou K. What is Law for the European Court of Human Rights? // Georgetown Journal of International Law, - Vol. 49, - No. 1, - 2017 – pp.89-134.
7. Google Spain SL and Google Inc. v Agencia Española de Protección de Datos (AEPD) and Mario Costeja González. Case C-131/12.
8. Lock T. The Influence of EU Law on Strasbourg Doctrines. European Law Review, vol. 41 (2016), no. 6, pp. 804-825.
9. Lock T.EU Accession to the ECHR: Implications for Judicial Review in Strasbourg. European Law Review. – 2010. – Is. 6.
10. Matthews v. The United Kingdom. Application № 24833/94. Judgment of 18 February 1999.
11. SlaughterA.-M. A Global Community of Courts. Harvard International Law Journal, December 2003, p.191-219.
12. Spain v. UK, Case C-145/04
13. X v. Germany. Application No. 342/57
14. Войников В.В. Право Европейского Союза в практике Европейского Суда по правам человека // Международное правосудие. - 2020. - №1 (33). - С. 50-66.
15. Исполинов А.С. Суды региональных интеграционных объединений в международном правосудии: на примере Суда ЕС и Суда ЕАЭС. Дис... канд. юрид. наук. М., 2018. – 346 с.

♦**Новрузова Саадат Самед кызы** – доктор философии по праву, диссертант кафедры «Международное общее право» Бакинского госуниверситета, преподаватель юридического факультета Университета «Хазар» (Азербайджан). E-mail: saadat_n@yahoo.com

16. Рябова В.О. Взаимодействие Суда Европейского союза и Европейского суда по правам человека по делам о защите прав человека после Лиссабонского договора. Дис... канд. юрид. наук. М., 2016, 188 с.

17. Черныш А.В. Конкурентное право Европейского Союза и соблюдение прав человека. Дис... канд. юрид. наук. Казань, 2015, 194 с.